


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 146 (24.033)

*5 avqust 2022-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Fənn müsabiqələri və olimpiadaların qalibləri mükafatlandırılıb

*Avqustun 4-də respublika fənn olimpiadalarının, Lütfi Zadə adına məntiq olimpiadasının və respublika fənn müsabiqələrinin qalibi olan məktəblilərə medal və sertifikatlar təqdim olunub.*



Naxçıvan Dövlət Texniki Kollecində keçirilən tədbirdə olimpiadanın qalibləri ilə yanaşı, şagirdlərin valideynləri də iştirak ediblər.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov olimpiada və müsabiqə qaliblərini təbrik edərək bildirib ki, əldə olunan uğurlu nəticə muxtar respublikada təhsilə göstərilən dövlət qayğısının, yaradılan müasir tədris şəraitinin nəticəsidir.

Qeyd edilib ki, təhsildə aparılan məqsədyönlü tədbirlərin nəticəsidir ki, artıq muxtar respublikada şagirdlər hərtərəfli biliyə yiyələnməklə yanaşı, buraxılış və qəbul imtahanlarında da yüksək nəticələr göstərirlər. Muxtar respublika məktəbliləri arasında keçirilən olimpiadaların əhəmiyyətindən də danışan təhsil naziri bildirib ki, şagirdlərin istedadlarının üzə çıxarılmasında, fənlərə olan marağının artırılmasında olimpiadaların böyük əhəmiyyəti var. Bu məqsədlə də 2021-2022-ci tədris ilində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən şagirdlərin olimpiadalarda iştirakı diqqətdə saxlanılıb, olimpiada hərəkatı gücləndirilib. Belə ki, 2021-2022-ci tədris ilində də VII-IX sinif şagirdləri üçün Amerika beynəlxalq riyaziyyat müsabiqəsi, IX-XI sinif şagirdləri üçün məktəblilərin respublika fənn olimpiadası, V sinif şagirdləri üçün Lütfi Zadə adına məntiq olimpiadası, II-X sinif şagirdləri üçün Kenquru beynəlxalq riyaziyyat müsabiqəsi və VI-VII siniflərdə təhsil alan şagirdlər üçün VII respublika fənn müsabiqəsi, həmçinin şagirdlərin riyaziyyat fənninə motivasiyasını artırmaq məqsədilə ilk dəfə olaraq I-XI sinif şagirdləri üçün SASMO beynəlxalq riyaziyyat olimpiadası keçirilib.

Diqqətə çatdırılıb ki, keçirilən olimpiada və müsabiqələrdə, ümumilikdə, muxtar respublika üzrə 2426 şagird iştirak edib, 239 şagird qalib olub. Bu şagirdlərdən 28-i respublika fənn olimpiadasının, 10-u Lütfi Zadə adına məntiq olimpiadasının, 10-u isə respublika fənn müsabiqəsinin qalibidir. Təhsil naziri müsabiqə və olimpiadalarda uğur qazanan şagirdləri təbrik edib, onlara təhsillərində uğurlar arzulayıb.

Tədbirdə Təhsil Nazirliyi Aparatının sektor müdiri Məmməd Bayramov çıxış edərək olimpiadanın əhəmiyyəti və təşkilati işlər barədə məlumat verib.

Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin XI sinif şagirdi, respublika fənn olimpiadalarında riyaziyyat fənni üzrə I yerin qalibi Cahangir Əlisoy muxtar respublikada şagirdlər üçün yaradılan müasir tədris şəraitinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra şagirdlərə medal və sertifikatlar təqdim olunub.

Qeyd edək ki, IX-XI siniflər üzrə keçirilən respublika fənn olimpiadalarında şagirdlərdən 6-sı I, 15-i II, 7-si III yerin, V sinif şagirdləri üçün keçirilən Lütfi Zadə adına məntiq olimpiadasında şagirdlərdən 2-si I, 3-ü II, 5-i III yerin, VIII sinif şagirdləri üçün keçirilən respublika fənn müsabiqələrində isə şagirdlərdən 2-si I, 3-ü II, 5-i isə III yerin qalibi olub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Yarım ilin yekunlarına həsr olunmuş iclas keçirilib

***Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın 2022-ci ilin ilk 6 ayı ərzində gördüyü işlər ilə bağlı iclası keçirilib.***



Komissiya üzvlərinin, ekspert qrupunun, rayon (şəhər) icra hakimiyyətləri yanında Qəyyumluq və Himayəçilik, Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə komissiyaların rəhbərlərinin iştirak etdiyi iclası giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın sədri Ramilə Seyidova bildirib ki, muxtar respublikamızda yaşayan uşaqlar hər il olduğu kimi, hesabat dövrü ərzində də dövlətin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunub. Onların qanunla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və mənafelərinin müdafiəsi ötən dövr ərzində diqqət mərkəzində saxlanılmış və bir sıra tədbirlər, monitorinqlər keçirilmişdir. Cari ilin 6 ayı ərzində komissiya uşaqların hüquqlarının və qanuni mənafelərinin qorunması, davranışlarına nəzarət edilməsi, qanunazidd əməllərinin qarşısının alınması istiqamətində bir sıra tədbirlər görmüş, monitorinqlər keçirilmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na uyğun olaraq 2021-ci il ərzində uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən komissiyaya təqdim olunmuş hesabat müzakirəyə çıxarılmış, təhlil olunmuş, yekun rəy qəbul edilmiş və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təqdim olunmuşdur. Bununla yanaşı, hesabat dövründə uşaq hüquqlarının qorunması ilə bağlı uşaq müəssisələrində monitorinqlərin keçirilməsi üçün ekspert qrupunun tərkibi cari il ərzində dövrü monitorinqlər keçiriləcək uşaq müəssisələrinin siyahısı təsdiq edilmişdir.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın ekspert qrupu tərəfindən 7 tam orta məktəb, 3 məktəbəqədər, 1 uşaq xəstəxanası, 1 idman müəssisəsi olmaqla, ümumilikdə, 12 uşaq müəssisəsində monitorinq keçirilmişdir. Monitorinqlərdə müəssisələrin və uşaqların sanitar-gigiyenik vəziyyətləri, təlim-tədrisləri, müəssisənin infrastrukturu, müəssisə heyətinin dövri tibb və laborator müayinələrdən keçirilməsi və bu kimi digər sahələr yoxlanılmışdır.

Vurğulanıb ki, muxtar respublikada uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi, dünyagörüşünün artırılması, intellektual səviyyələrinin yüksəldilməsi diqqətdə saxlanılmış, uşaq və yeniyetmələrin tərbiyə işinin təkmilləşdirilməsi, maarifləndirmə işinin aparılması, əlamətdar günlərdə onlara baş çəkilməsi məqsədilə, ümumilikdə, hesabat dövrü ərzində müvafiq komissiyalar tərəfindən, ümumilikdə, 455 tədbir keçirilmişdir. Bununla belə cari ilin ötən dövrü ərzində də digər kateqoriyadan olan uşaqlarla yanaşı, sağlamlıq imkanları məhdud uşaqlar da dövlətin diqqət və qayğısı ilə əhatə olunmuşlar. Onların hüquq və mənafelərinin müdafiə olunması, cəmiyyətə inteqrasiyası, sosial reabilitasiyası, uşaq müəssisələrinə cəlbi, asudə vaxtlarının səmərəli təşkili diqqətdə saxlanılmış, əlamətdar təqvim günlərində onlarla görüşlər keçirilmiş, hədiyyələr, bayram sovqatı verilmiş, ehtiyaclarına uyğun olan köməklik göstərilmişdir. Həmçinin tədrisə cəlb edilmiş 191 sağlamlıq imkanları məhdud uşağın təhsil aldığı 46 müəssisədə, 20 sağlamlıq imkanları məhdud uşağın evində monitorinq keçirilmişdir. Uşaqların valideynləri ilə geniş maarifləndirici söhbətlər aparılmış və potensiallarına uyğun olaraq 3 uşaq məktəbəqədər təhsil müəssisəsinə, 1 uşaq tam orta məktəbə cəlb edilmişdir.

Qeyd olunub ki, muxtar respublikada uşaq və yeniyetmələrin sağlamlığının qorunması, onlar arasında yayılan xəstəliklərin qarşısının alınması məqsədilə tibbi xidmətin keyfiyyəti artırılmış və bir sıra profilaktik tədbirlər həyata keçirilmişdir. Belə ki, hesabat dövrü ərzində muxtar respublikanın şəhər və rayonlarında 13 mindən çox uşaq müayinə olunmuş, 8000-dən çox uşağa isə profilaktik peyvənd vurulmuşdur.

Rayon (şəhər) Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə və Himayə və Qəyyumluq komissiyalarının hesabat dövrü ərzində gördüyü işlər haqqında da ətraflı məlumat verən Ramilə Seyidova bildirib ki, Naxçıvan Muxtar Respublikası Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində yaradılmış elektron məlumat bankına istifadəçilər tərəfindən hesabat dövrü ərzində 1361 uşaq haqqında məlumat daxil edilmiş, valideyn himayəsindən məhrum 12 uşaq haqqında məlumatlar komitədə yaradılmış bazaya əlavə olunmuşdur.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Şəhərimizdə kompleks tikinti-quruculuq işləri davam etdirilir

*Muxtar respublikamızda günü-gündən inkişaf edən, yenilənən iqtisadi-sosial, mədəni siyasətin bir hissəsini də tikinti-quruculuq, abadlıq və yenidənqurma işləri təşkil etməkdədir. Şəhərimizin hansı istiqamətinə üz tutsaq, görərik ki, insanların sağlam yaşayışı, mədəni istirahəti, gənclərin vaxtlarını səmərəli keçirməsi üçün kifayət qədər maraqlı ünvanlar park-xiyabanlar, təlim-tədris mərkəzləri, gənclər şəhərciyi və çoxsaylı sosial obyektlər tikilərək onların istifadəsinə verilib.*



Qeyd edək ki, bu gün muxtar diyarımızda sözügedən tikinti-quruculuq işlərinin bir istiqamətini də mənzil tikintisi əhatə edir. Sosial tədbirlər silsiləsinə daxil olan mənzil tikintiləri vətəndaşların yaşayışlarının yaxşılaşdırılması, məskunlaşmanın yüksəldilməsi və yüksək rifahın təmin olunması yönündə mühüm əhəmiyyət kəsb edir. Şəhərimizdə tikintisi sürətlə davam etdirilən daha bir yeni "Gənclər şəhərciyi" dediklərimizin bariz nümunəsidir. Məlumat üçün qeyd edək ki, Naxçıvan şəhəri, 48-ci məhəllədə, Naxçıvan Muxtar Respublika Xəstəxanasının yaxınlığında salınan, 2019-cu ildə təməli atılan və tikintisi davam etdirilən rezidens yaşayış massivində 9 mərtəbədən ibarət 7 yaşayış binasının tikintisi nəzərdə tutulub. Hələlik dörd binada quruculuq işləri həyata keçirilir. Mərtəbələrin hər birində 2 ikiotaqlı, 4 üçotaqlı olmaqla, ümumilikdə, 6 mənzil yerləşəcək, yəni binaların hər birində 48 mənzil olacaq. İkiotaqlı mənzillər 71, üçotaqlılar isə 84, 87 kvadratmetr olacaq. Onu da bildirək ki, mənzilləri əldə etmək üçün vətəndaşlara güzəştli ipoteka şərtləri və şirkətin daxili kreditləri hesabına güzəştli tariflər də təqdim olunacaq.

Mənzillərin hər birində ən müasir mənzil-məişət şəraiti yaradılacaq, yeni istilik və havalandırma sistemləri quraşdırılacaq. Binaların hər birinin birinci mərtəbəsində qeyri-yaşayış sahələri yerləşəcək ki, onların hər birində müxtəlif ticarət və xidmət mərkəzləri fəaliyyət göstərəcək. Uşaqlar və gənclər üçün müxtəlif idman infrastrukturu, o cümlədən geniş avtomobil dayanacaqlarının yaradılması da nəzərdə tutulub.



Şəhərimizin Nizami küçəsində və Babək məhəlləsində də yeni yaşayış binalarının tikintisi davam etdirilir. Nizami küçəsində inşa olunan 64 mənzilli yaşayış binası zirzəmi ilə birlikdə 8 mərtəbədən ibarətdir. Hazırda binanın altı mərtəbəsində beton-qəlib işləri sona çatdırılıb, hörgü işləri yekunlaşdırılıb. Yeddinci mərtəbədə isə beton qəlibləmə işləri sürətlə davam etdirilir. Babək məhəlləsində inşası davam etdirilən, zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olan yaşayış binasında iki,



üç və dördotaqlı olmaqla, 48 mənzil istifadəyə veriləcək. Binaların hər birində işlər ardıcıl olaraq davam etdirilir.

Görülən işlər diyarımızda dinamik inkişafın ən prioritet istiqaməti sayılan təhsil siyasətini də əhatə edir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il iyunun 7-də "Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında" Sərəncamının icrası istiqamətində muxtar diyarımızda təhsilin yeni növü olan STEAM-in bütün ümumtəhsil məktəblərində tətbiq olunması üçün də muxtar respublikamızın hər yerində müasir şərait yaradılır. Universitet şəhərciyi yaxınlığında inşası davam etdirilən və zirzəmi ilə birlikdə dörd mərtəbədən ibarət olan STEAM təlim-tədris mərkəzində də müasir təhsil infrastrukturunun yaradılması nəzərdə tutulub. Məlumat üçün qeyd edək ki, Təhsil Nazirliyinin tabeliyində yaradılan bu mərkəzdə, mərtəbələr üzrə müvafiq dərs otaqları, o cümlədən müasir dizayna malik mühəndislik emalatxanası, informatika və kompüter, texnologiya, 3D printer, robot uçuşu otaqları və digər bölmələr fəaliyyət göstərəcəkdir. Mərkəzin yeni tədris ilində istifadəyə verilməsi nəzərdə tutulub.

✍ **Məcid RƏŞADƏTOĞLU**

Müasirləşən kəndlərimiz

# Saltaq kəndində gözəl bir gün...



*İsti yayın bir günü, mavi səmanı nurlandıran Günəşi özümüzə yoldaş edib, düşürük yollara. Bu dəfə yolumuzu rayonun Saltaq kəndinə salırıq. Haçadağın ətəyində yerləşən bu kənddə 450 təsərrüfatda 1032 sakin yaşayır. Bu yaşayış məntəqəsi də muxtar diyarımızın müasirliyə qovuşan kəndləri sırasında öz yerini tutub.*

İlk olaraq, bizi qarşılayan Saltağın yaşıl örpəyə bürünən təbiəti, göylərə baş qaldıran ağacların ətrafa verdiyi əsrarəngiz ətri və görüntüsüdür. Kəndi dolaşıb buranın ecazkar gözəlliyi ilə bir az baş-başa qaldıqdan sonra kənd sakini ***Mahir Əsgərov***la salamlaşıb, həmsöhbət oluruq. İnkişaf dövrünü yaşayan Saltaq kəndi haqqında müsahibimizdən geniş məlumat alırıq:

– Əlincə çayının sağ sahilində, dağlar qoynunda yerləşən kəndimiz rayonumuzun inkişaf etmiş, gözəl guşələrindən biridir. Bu kəndin etimologiyasında qeyd edilir ki, kəndin adı iki sözün – "sal" və "tağ" ifadələrinin birləşməsindən əmələ gəlibdir ki, bu da sal – sıldırım, tağ isə dağ mənasını verir. Kəndin sakinləri qədim zamanlardan, əsasən, heyvandarlıqla, üzümçülük və meyvəçiliklə məşğul olub. O dövrlərdə bu kəndə "bala İstanbul" adı qoyulmuşdu. Bunun da səbəbi kənddə sıx əkilən ağaclardan evlərin belə görünməməsi idi. Kənardan baxılanda burada yaşayış məntəqəsi deyil, qalın meşəni görmək olardı. Lakin çox təəssüflə xatırlayıram ki, 90-cı illərin çətinliyi bu kəndə də öz ağır zərbələrini vurdu. İstilik yaratmaq üçün kəndin insanları məcburən bağlardakı ağacları kəsməli oldu. Amma onu da qeyd edim ki, nəhayət, müstəqillik qazanıldıqdan sonra bir sıra problemlər öz həllini tapdığı kimi, təbiətə bu amansızcasına ziyan vurmanın da qarşısı alındı. Təbii qaz və elektrik enerjisi ilə təmin olunan kəndin insanları rahat həyata qovuşdu. İndi hər kəsilən ağacın yerində yeni tinglər əkərək, el dili ilə desək, "bala İstanbul"u kəndimizdə yaratmağa çalışırıq. İnanırıq ki, kəndimizi əvvəlki görkəminə qaytaracağıq. Bu kəndin bir özəlliyi də onda idi ki, sakinlər evini salarkən yerini əkinəyararsız olan torpaqlar seçirlər. Əkinəyararlı torpaqlar isə ailənin ruzisi üçün istifadə olunur. Belə ki, ötən əsrin 30-cu illərində kənddə salınan bütün evlər qayalıq deyilən yerdə yerləşir.

Qeyd edək ki, bu kənd vətənpərvər, igid oğulların yurdudur. Kənd icra nümayəndəsi ***Kərim Bağırov***la söhbət zamanı öyrəndik ki, 44 günlük Vətən müharibəsində vuruşan oğullardan biri şəhid Amin Gülməmmədov idi. Digər igidimiz isə Vətən Müharibəsi Qəhrəmanı Qəzənfər Bağırlıdır. Məlumat alırıq ki, Qəzənfər Bağırlı hazırda Vətənə xidmətini davam etdirir.

Biz də ilk olaraq şəhid məzarını və ailəsini ziyarət etməyi özümüzə borc bildik. Ailə ilə tanış olub, söhbətləşdik. Şəhidin atası Mais Gülməmmədov bildirdi ki, oğlu ilə fəxr edir, bu gün o bizimlə olmasa da, nə dövlətimiz, nə də xalqımız bizdən qayğısını əsirgəyir. Kəndə hər gələn qonaq özünə borc bilir gəlib bizi ziyarət etməyi. Elə bir çətinliyimiz də yoxdur, bu qayğıya görə dövlətimizə minnətdarlığımı bildirirəm.



Yaz-yay fəsilləri kənd yerlərinə təsərrüfat qayğıları gətirir. Elə bu qayğını Saltaq kəndində də görürük. Kəndi gəzərkən bağlarında meyvə ağaclarına qulluq edən, geniş əkin sahələrini suvaran, kərdi, arx yerlərini yabanı otlardan təmizləyib düzəldən insanlar diqqətimizi cəlb edir. Burada torpağını, yurdunu sevən, əmək verib bol-bərəkətli məhsul götürən insanları görmək olduqca sevindiricidir. ***Hilal Gülməmmədov*** da torpağa böyük zəhmət verən belə kənd sakinlərindən biridir. Onunla həmsöhbət oluruq:

– Əbəs yerə deyilməyib ki, qızım, "insan öz zəhməti ilə böyüyər". Mən uzun illərdir ki, müəllim işləyirəm. Amma əməksiz yaşaya bilmərəm. Günümün çoxu bu bağımda keçir. Yaz-yay gəldi, mənim ən yaxın dostum bax bu beldir. Onu əlimdən yerə qoymuram. Torpağı belləyir, ağacların, üzümlüyün qeydinə qalıram. Bu gün əsas işim üzümlükdə yeni şivlərə baxmaq, xəstəlik varsa, dərmanlamaq, onları qurumağa qoymamaq, meyvə verməsi üçün inkişaf etdirməkdir. Bağımda hər cür meyvə sortları əkib-becərirəm. Bundan əlavə, calaq üsulundan da istifadə edirəm. İxtisasım biologiya müəllimidir. İxtisas biliklərimdən savadlı şagirdlər yetişdirməklə bərabər, kəndimizin yaşıllaşması üçün də istifadə edirəm. Ağaclarımızın qayğısına qalır, yeni növ, gecyetişən ağac calaqları edirəm. Yay fəslinin bu dövründə ərik, gilənar, gilasın sovuşan vaxtıdır. Amma kəndimizdə bir çox bağlarda calaq etdiyim ağaclarda indi yetişir. Sizin qismətinizə bağımdan gilas, gilənar, ərik yemək düşüb. Buyurun, əyləşin, meyvələrin dadına baxın.

Hilal müəllimin sözünü yerə salmır, bağının dadlı meyvələrindən həvəslə dadır, doğrudan da, ləzzətli olduğunu deyirik. Onunla sağollaşıb, kəndi gəzməyə başlayırıq.

Bildirək ki, kənddə zəhmətkeş insanlarla söhbət etmək bizdə bu yurd yerinin insanları haqqında xoş təəssürat yaradır. Bizimlə maraqlı, ətraflı söhbət edən ***Allahqulu Hüseynov*** da məşğul olduğu üzümçülük sənətini çox sevdiyini qeyd edir:

– Üzümçülük ta ata-babamızdan qalma, qədim peşədir. Demək olar ki, bu gün kənddə hamı bu təsərrüfat növü ilə məşğul olur, gəlirli sahə olduğu üçün yeni üzüm bağları salınır, müxtəlif növdə üzüm sortları əkilərək həm meyvəsi istifadə olunur, həm milax şəklində qış üçün tədarük edilir həm də növündən asılı olaraq kişmiş-mövüc hazırlanır.

Hər bir iş kimi bu sahənin də çətinliyi var. Soyuq iqlim şəraiti olan kəndimizdə bağımızı soyuqdan qorumaq üçün qışa yaxın üzüm tənəklərini torpaqla örtürük. Yaz fəsli yurdumuza qədəm qoyan kimi ilk işimiz onların üstünü açmaq olur. Yay fəslində isə tənəkləri vaxtlı-vaxtında suvarır, qulluq edirik ki, bol məhsul əldə edək. Bax beləcə, işimizi düzgün qurub, əmək versək, əlimiz boşda qalmaz, illik ruzini əldə etmiş olarıq.

Hər addımda kənddə yaşıllıq və gül-çiçəklə qarşılaşmaq ruhumuza dinclik bəxş etməklə yanaşı, qəlbimizi fərahladır, biranlıq duyduğumuz bu ab-havanın bitməsini istəmirik. Təmiz, təravətli havanı ciyərlərimizə çəkir, kəndin sərin, şehli havası ilə Günəş şüalarının isinməsindən ruhumuzu gəncləşmiş hiss edirik.





Saltaq kəndinin sayılıb-seçilən, 40 illik ömür sürən mehriban bir ailənin ağsaqqalı, rayonun kənd məktəblərində uzun illər hərbi rəhbər olan ***Adil Cabbarov***un evində qonaq oluruq. Kənd sakinlərinin hörmətini qazanan Adil müəllim vaxtilə kəndin əməksevər, qoçaq adamlarından olub. Nümunəvi ailə başçısı olan zəhmətkeş insan gələcəyə vətənpərvər hərbçilər yetişdirməklə bərabər, bənnalıq edərək kənddə 200-dən çox ev tikib. Əməksevər olan bu insanın əli, əməli o qədər saleh olub ki, bağ-bağçasında uzun illər əziyyət çəkib əkib-becərdiyi ağacları bu gün bol bəhrəsini verir. Adil müəllim bildirir ki, vaxtında tənbəllik etməyib saldığı bağ bu gün əməyinin qarşılığını verdiyi üçün çox sevinir.

Qayğıkeş olduğu qədər də qonaqpərvər olan ailə ilə mehriban, xoş söhbət edirik. Ailənin ağbirçəyi ***Zərifə Cabbarova***dan ailənin uzunömürlü olmasının səbəbini soruşduqda bildirdi ki, istər böyük, istərsə də kiçik olsun, bir-birinə hörmətlə yanaşmağı bacarmalıdır. Ailənin təməli hörmət və mehribanlıqla qoyulur. İndiki gənclərə də məsləhətim elə budur ki, bunu bacarsınlar, onda ailənin gələcəyi gözəl və xoşbəxt olar.

Əlvan rəngi ilə gözə zövq verən, təravəti ilə insanı bihuş edən çiçəklərdən bal alan arılar da elə ilin bu vaxtında insanlar qədər çalışır. Hansı çiçəyə yaxınlaşsaq, zəhmətkeş arıların nəğmə kimi səslənən səslərini eşidirik. Zəngin təbiəti və mülayim iqlimi olan bu kənddə arıçılıq da kənd sakinlərinin son zamanlar maraq göstərdiyi sahələrdən biridir. Kənddə təcrübəli arıçı ***Fərhad Quliyev***lə söhbət edirik. Öyrənirik ki, 30 ilə yaxın bu peşə ilə məşğul olan kənd sakini təsərrüfatından əldə etdiyi balla alıcılarının rəğbətini qazanıb:

– Arıçılıq çox gözəl peşədir. Kəndimizin təbiəti də bizə bu işlə məşğul olmağımıza imkan verir. Bu işlə məşğul olanlar gərək arılara yaxşı baxsınlar. Vaxtlı-vaxtında arıya baxılsa, şirəsi, dərmanı verilsə, arının inkişafı, məhsuldarlığı da yaxşı olar. Arıçılıqla məşğul olmaq istəyən zəhmətdən yoruldum deməməlidir, bu işin əsl həvəskarı olmalıdır. Eyni zamanda bu sənətin sirlərini bilməlidir. Bu işdə nə qədər zəhmət çəksən də, əməyin yerdə qalmır. Arıçılığa yeni başlayanlar bu sadaladıqlarıma diqqət etsələr, təsərrüfatlarını genişləndirə, bol məhsul, yaxşı gəlir əldə edə bilərlər.

Qışda həyətdə ayırdığım otaqlarda saxladığım arıları yaz fəsli gələn kimi həyətə çıxarıram. Arılara əsas qulluq da elə bu fəsildə tələb olunur. Yazda hava dəyişkənliyi olduğu üçün arılarda xəstəlik yaranır. Gərək diqqətli olub vaxtında dərmanlayasan. Yay fəsli gələndə arılarımı Ləkətağ kəndinin dağlarına aparıram. Bol çiçəkli ərazidə məskən salmaq məsləhətdir ki, arılar da yaxın məsafədən şirə toplayıb, bol məhsul versin. Hər bir iş əmək istəyir, bu iş də, həmçinin. Ancaq onu deyim ki, çəkdiyimiz heç bir zəhmət yerdə qalmır, bol məhsul götürürük.

"Məhsulunuzu necə satışa çıxarırsınız?" – sualımıza arıçı cavab verdi ki, məhsulunu Naxçıvan şəhərində keçirilən "Arıçılıq məhsulları – bal festivalı"na, dövlətimiz tərəfindən təşkil olunan kənd təsərrüfatı məhsullarının satış-yarmarkalarına çıxararaq heç bir əziyyət çəkmədən sərfəli qiymətə satır.

Kənddə yolun kənarında dəyirman binasını görüb dayanırıq. Xalqımızın məişət mədəniyyətinin ayrılmaz parçası olan su dəyirmanlarından tarixən qədim zamanlardan geniş istifadə edilib. Son illər muxtar respublikada tarixi abidələrin, qədim tikililərin bərpası istiqamətində görülən işlər ruzi-bərəkət rəmzi olan su dəyirmanlarını da əhatə edib. Elə gördüyümüz bu dəyirman da quruculuqdan öz bəhrəsini alıb. Əvvəllər Saltaq kəndi ilə yanaşı, qonşu kəndlərin də ehtiyacını ödəyən su dəyirmanı köhnə, yararsız binada yerləşirdi. 2016-cı ildə Əlincə çayından qidalanan 2800 metrlik dəyirmanın su arxı yenidən qurularaq kənd sakinlərinin istifadəsinə verilib.

Müsahiblərimizlə sağollaşıb geri qayıtmaq istəyirdik ki, kənddən bir az kənarda düzlərə səpələnən qoyun-quzunu görəndə kənd həyatı ilə bağlı təəssüratlarımız elə buradaca tamamlanır. Yaşıl otlaq sahələrində atılıb-düşən, mələşən, yorulub yatışan qoyun-quzu, həqiqətən də, kənd mənzərəsinin bəzəyi, yaraşığıdır, – deyirik. Qoyun-quzunu otaran kənd sakini ***Tahir Cabbarov***la söhbətləşirik. Müsahibim bildirir ki, onların ailəsində heyvandarlıqla məşğul olmaq nəsildən-nəslə keçib. Onun babaları da vaxtilə kənddə geniş heyvandarlıqla məşğul olublar:

– Bizim ailə hər zaman öz gəlirini bu sahə ilə məşğul olaraq təmin edibdir. Mən də bu işlə məşğulam. Bir neçə yoldaşımla bərabər, özümüzə ferma yaratmışıq. İşimizi genişləndirib, gəlirimizi də artırmışıq. Kəndimiz də bu iş üçün çox əlverişlidir. Yay fəsli sürümüzü yaylağa aparırıq. Orada bol otlaqlı sahələrin olması şərait yaradır ki, heyvanları saxlayaq. Bir sözlə, əziyyət çəkən, səfa görər.

*Yaddaşımıza yazılan xoş günlərdən biri də Saltaq kəndində keçirdiyimiz gün oldu. Bu kənddən də şən və xoş təəssüratla qayıdırıq. 2016-cı ildən burada yaradılan müasir infrastruktur, göstərilən dövlət qayğısı kənd sakinlərinin sosial-rifah halının daha da yaxşılaşdırılmasına xidmət etməklə kəndin əsrarəngiz gözəlliyinə ikiqat gözəllik bəxş etdiyi üçün bu yurd yerindən ayrılmağa daxili təəssüf hissi keçiririk. Eyni zamanda torpağa bağlı, sadə və zəhmətkeş, yurdsevər saltaqlıların dövlətimizin yaratdığı hərtərəfli şəraitdən doğan sabaha inamları heç vaxt unutmayacağımız xoş ovqat, fərəh, sevinc bəxş edir bizə. Bu xoş təəssüratları bölüşmək üçün isə redaksiyaya çatıb yazı masasının arxasına keçməyə səbirsizlənirik.*

**Səriyyə SALAHOVA**
***"Arazın səsi" qəzetinin məsul katibi***

# Şərur rayonunda bol kartof yetişdirilib

Muxtar respublikamızda əlverişli təbii mühitin olması, əkinəyararlı torpaqların üstünlük təşkil etməsi və süni suvarma şəbəkələrinin mövcudluğu burada kənd təsərrüfatı işinin təkmilləşdirilməsinə geniş şərait yaradır. Yurdumuzun bütün ünvanlarında, habelə qəsəbə və kəndlərində aqrar sahənin bir çox istiqamətləri zəhmətsevər insanlar tərəfindən bu gün də yaşadılır. Ömrünü əməyə, halal çörəyə bağlamış, torpaqla bütünləşmiş insanlar bu yolla həm dolanışıqlarını təmin edir, həm də ölkə iqtisadiyyatına öz töhfələrini verirlər. Diyarımızın bir çox yerlərində bağçılıq-bostançılıq, bir qismində heyvandarlıq əsas məşğuliyyət sahəsi olduğu kimi, öz məhsuldarlığı ilə seçilən Şərur rayonunda da hər il yüksəkkeyfiyyətli bol kartof yetişdirilir, bir sözlə, meyvə-tərəvəzçilik bu yerlərdə əsas gəlir sahəsi hesab olunur.



Qeyd edək ki, ölkəmizin, o cümlədən muxtar respublikamızın tərəvəz məhsulları ilə təminatında Şərur rayonunun böyük payı var. Rayonun, demək olar ki, əksər kəndlərində istixana təsərrüfatları salınıb, kənd sakinləri tərəfindən bu istiqamətdə lazımi şərait yaradılıb. Hər gün şəhərimizə, eləcə də digər rayonlarımızın bazarlarına Şərurdan tərəvəz məhsulları daşınır. Eyni zamanda Şərur rayonundan gündəlik olaraq yerli bazarlara müxtəlif tərəvəz məhsulları, o cümlədən kartof göndərilir. Rayon ərazisində bu təsərrüfat işinin günü-gündən artması da təsadüfi deyil. Belə ki, dövlətimizin təsərrüfat sahiblərinə göstərdiyi qayğı, əkiləcək məhsulların yüksəkkeyfiyyətli toxumlarla təmin olunması, onlar üçün əlverişli iş şəraitinin yaradılması bu sahəyə marağı daha da artırır.

Məlumat üçün qeyd edək ki, ötən il Şərur rayonu ərazisində 1374 hektar ərazidə kartof əkini həyata keçirilib və 25 min tona yaxın məhsul əldə edilib. Bu il də rayonda kartofçuluğa maraq xeyli artıb. Belə ki, cari ildə 1376 hektar sahədə kartof əkini həyata keçirilib, hazırda isə yığım işləri davam etdirilir. Mütəxəssislərin fikrinə görə, rayonda əldə olunan məhsulun ötənilki ilə müqayisədə daha çox olacağı gözlənilir. Rayonda kartof əkininə görə Aralıq, Axaməd, Cəlilkənd, Düdəngə, Zeyvə və Sərxanlı kəndləri, xüsusilə seçilir.

Muxtar respublikada aqrar sahənin inkişaf etdirilməsi həm də iqtisadiyyatın şaxələndirilməsinə şərait yaradır. Kənd təsərrüfatının digər sahələri kimi, kartofçuluq da muxtar diyarımızda təşəkkül tapmış aqrar sahənin əsas istiqamətlərindəndir. Kartofun ən çox yetişdirildiyi rayonlarımızdan olan Şərurda ilbəil bu sahəyə maraq daha da artır. İnanırıq ki, gələcək illərdə də kartofçuluq rayonun aparıcı təsərrüfat işlərindən biri olaraq qalacaq.

**Xəbərlər şöbəsi**

*2022-ci il "Şuşa ili"dir*

# Şuşanın sənət rəmzinə çevrilən dünya şöhrətli bəstəkar, Naxçıvanı təmsil edən deputat

*Şuşa... Bu adı eşidən hər bir azərbaycanlının xatirində, düşüncəsində ən gözəl, xoş, mənalı, qürurla, fəxrlə dolu nələr canlanır, nələr: şahə qalxan Qarabağ atları, güləş yarışına çıxan oğulları, güştü tutan pəhləvanları, bərbəzəkli xonçalarla məclis süsləyən ismətli qadınları, sinəsinə bəzək vuran xarıbülbülü ilə bayram ovqatına bürünən əsrarəngiz Cıdır düzü, oğlan və qızların əhd-peyman ocağı sayılan İsa bulağı, möhtəşəmlik rəmzinə çevrilən Şuşa qalası, qədim adət-ənənələri ilə seçilən Seyidli, Dörd Çinar, Dəmirçilər, Köçərli, Saatlı kimi məhəllələr, onlarla tarixi-mədəni abidələr. Pənahəli xanın yadigarı, Molla Pənah Vaqif poeziyası, xan qızı Xurşidbanu Natəvanın şeir şövqü, ilham qaynağı, Bülbülün qəlbə yayılan xoş avazı ilə tanınan, sevilən Qafqazın sənət məbədi, Azərbaycanın qədim sivilizasiya mərkəzi, mədəniyyət paytaxtı. Və ən əsası isə Müzəffər Ali Baş Komandan, qəhrəman oğullar sayəsində qara hərflərlə yazılan 8 may səhifəsinin üstündən xətt çəkən zəfər nidalı 8 Noyabr Günü, uzun illərdən sonra yenidən keçirilən "Xarıbülbül" Musiqi Festivalı, 270 illiyini təntənə ilə qeyd etdiyimiz 2022-ci il – Şuşa ili...*

Şuşanın rəmzinə çevrilən, həmişəyaşar əsərləri ilə könüllərdə taxt quran, musiqiçi nəsillər yetişdirən bir düha da vardır ki, onun adı çəkiləndə Naxçıvan və Şuşa, iki qədim tarixə, zəngin mədəniyyətə, milli-mənəvi dəyərlərə xas dilbər guşə eyni anda canlanır yaddaşlarda. 1937-ci ildə birinci çağırış, 1946-cı ildə isə ikinci çağırış SSRİ Ali Sovetinə Naxçıvandan deputat seçilən, 1926-cı ildə ilk Azərbaycan xorunu, 1931-ci ildə isə Azərbaycan Xalq Çalğı Alətləri Orkestrini yaradan Üzeyir Hacıbəyovdan gedir söhbət. Bu musiqi dahisinin həyatının Naxçıvanla bağlı dövrünü geniş şəkildə gündəmə gətirmək, oxucularımıza ətraflı məlumat vermək üçün üz tutduğumuz ünvanlar isə Naxçıvan şəhərindəki Dövlət Arxiv İdarəsi və Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasıdır. Araşdırmamızın məramı "Üzeyir Hacıbəyov – böyük sənət müğənnisi" ("Şərq qapısı" qəzeti, 18 sentyabr 1955-ci il), "İki görüş" ("Ədəbiyyat və incəsənət" qəzeti, 5 oktyabr 1968-ci il), "Yaxşı yadımdadır…" ("Azərbaycan gəncləri" qəzeti, 18 sentyabr 1955-ci il), "Zəmanəmizin böyük bəstəkarı" ( "Şərq qapısı" qəzeti, 24 noyabr 1950-ci il), "Böyük vətəndaş, görkəmli sənətkar" ("Kommunist" qəzeti, 18 sentyabr 1980-ci il), "40 yaşlı təhsil ocağı" ("Şərq qapısı" qəzeti, 9 dekabr 1977-ci il), "Həmişəyaşar sənət – Üzeyir Hacıbəyov" (Dahi bəstəkarın 90 illiyinə həsr olunan təntənəli yığıncaq, "Kommunist" qəzeti, 22 noyabr 1975-ci il), "El qədrini bilən sənətkar" ("Bakı" qəzeti, 20 dekabr 1965-ci il), "Görkəmli müəllim və metodist" ("Azərbaycan müəllimi" qəzeti, 19 dekabr 1965-ci il) və digər çoxsaylı məqalələrdən yola çıxaraq "Üzeyir Hacıbəyovu muxtar respublikaya bağlayan məqam nə oldu?" sualına cavab tapmaqdır. Tariximizə dərindən bələd olan görkəmli bəstəkarın Naxçıvan və naxçıvanlılara xüsusi rəğbətinin səbəbinə, bu diyarın çiçəklənməsi, musiqiçi kadrların yetişdirilməsi üçün gördüyü işlərə, qədirbilən Naxçıvan camaatının istəyi ilə bu diyarın deputatı kimi fəaliyyətinə qısaca nəzər salmağa çalışacağıq...



Ötən əsrin 40-50-ci illərinə aid kitab və mətbu məqalələrdən məlum olur ki, dahi bəstəkarı Naxçıvanla yaxınlaşdıran ilk məqam qardaşı Zülfüqar Hacıbəyovun 1910-cu ildə Naxçıvan teatrı ilə əlaqəsindən sonra yaranır. Belə ki, tanınmış bəstəkar Zülfüqar Hacıbəyov həmin ildə ilk dəfə Mirzəağa Əliyev, Göyərçin xanım və digər sənətkarlarla birlikdə Naxçıvana gəlir, 1911-ci ildə yerli truppa üzvlərinin iştirakı ilə Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun", "Ər və arvad" və özünün "Əlli yaşında cavan" əsərlərini tamaşaya hazırlayır. Naxçıvanda xeyli sayda gənc istedadlı musiqiçilərlə tanışlığı, bir sıra mütəffəkirlərlə əlaqələri Zülfüqar Hacıbəyovu 1910-1912-ci illərdə burada yaşayıb-yaratmağa sövq edir. "Evliykən subay" musiqili komediyasını Naxçıvanda olarkən yazıb qurtarır, əsər 1912-ci ilin mart ayında buradakı Dram Teatrın səhnəsində tamaşaya qoyulur. Bəstəkar bu illərdə Naxçıvanda Şərq musiqisindən ibarət müsamirələr təşkil edir, dram dərnəyi üzvlərinin musiqi təliminə də xüsusi diqqət yetirir, ifaçıların zövqünün inkişafına çalışır. Naxçıvanın ədiblər, sənətkarlar diyarı olması, Zülfüqar Hacıbəyovun buranın musiqi mühiti, gənc istedadları ilə Üzeyir Hacıbəyovu tanış etməsi, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, 1929-cu ildən görkəmli yazıçı Məmməd Səid Ordubadi ilə dostluq, yaradıcılıq əlaqəsi dahi sənətkarı Naxçıvana bağlayan, buraya üz tutmasına vəsilə olan mühüm amillərdəndir. Musiqi dahisinin həyatının bütün məqamlarına nəzər yetirdikcə Məmməd Səid Ordubadinin "Üzeyir bəyin əsas xüsusiyyətlərindən biri də sadə yaşayışı sevməkdən ibarət idi. Mən əvvəlcə, bir çox opera və operettalar müəllifi olan bu mahir bəstəkarın çox dəbdəbəli və təntənəli həyat keçirdiyini zənn edirdim. Amma "Koroğlu" operasını yazdığımız bir neçə ilin ərzində fikrimin yanlış olduğunu anladım. Onun həyatı adi bir insanın həyatından o qədər də fərqli deyildi, çünki o qazandığının mühüm bir hissəsini paylayırdı, çox səxavətli və əliaçıq adam idi" sözlərinə haqq qazandırmamaq mümkün deyil. Belə ki, Naxçıvanda ilk musiqi məktəbinin açılmasında (Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi sədrinin 23 avqust 1937-ci il tarixli Qərarı ilə) böyük xidmətləri olan, məktəbə piano hədiyyə edən Üzeyir Hacıbəyov ölməz sənətkarlıq keyfiyyətləri ilə yanaşı, həm də nümunəvi yoldaş, qayğıkeş insan, fədakar vətəndaş kimi naxçıvanlıların qəlbində özünəməxsus yer tutmağı bacarıb. 1937 və 1946-cı illərdə Naxçıvandan SSRİ Ali Sovetinə deputat seçilən dünya şöhrətli bəstəkar xalqın rifahı, xoşbəxtliyi, Naxçıvan və naxçıvanlıların mənafeyini qorumaq naminə var qüvvəsi ilə çalışıb. "Şərq qapısı" qəzetinin 1945-ci il 21 sentyabr nömrəsində işıq üzü görən Naxçıvan zəhmətkeşlərinin anadan olmasının 60, musiqi fəaliyyətinin 40 illiyi ilə bağlı akademik Üzeyir Hacıbəyova ünvanladığı məktubda da insanların dahi sənətkarın fəaliyyətindən razılıq, sənətinə sevgisi açıq şəkildə ifadə edilir: "Sizin şəxsinizdə bizim musiqimiz bütün sovet xalqları içərisində səslənməkdədir. Bunun əsl səbəbi ondan ibarətdir ki, siz yaradıcılığınız boyu xalqdan ayrılmamısınız. Siz xalqın arzu və istəklərini, onun şadlığını və qəlb acılarını incə və zəngin musiqinizdə əks etdirmisiniz".

Deputat olduğu 11 il ərzində Naxçıvanda musiqi məktəblərinin, kollektivlərinin təşkilində, peşəkar kadrların yetişdirilməsində müstəsna rol oynayan dahi Üzeyir Hacıbəyovun diyarın iqtisadi, mədəni, cəmiyyətin sosial-ictimai həyatının yüksəlməsinə töhfəsi danılmazdır. Mütəmadi olaraq Naxçıvana gələrək sakinlərlə görüşər, onların arzularının gerçəkləşməsini təmin edərdi görkəmli sənət adamı. Naxçıvanlılardan bəstəkar Məmməd Məmmədovun, sevimli Xalq şairimiz İslam Səfərlinin və başqalarının təhsil almasında böyük pay sahibi olub, maddi və mənəvi təminatını canla-başla yerinə yetirib. Üzeyirbəyşünas Səadət Qarabağlı yazılarının birində dünya şöhrətli bəstəkarın köməkçisi, professor Ramazan Xəlilovun xatirələrini paylaşır: "1945-ci il idi. Üzeyir bəy Naxçıvana seçiciləri ilə görüşə getmişdi. Biz orada "Qonaq evi"ndə qalırdıq. Bir gün "Qonaq evi"nə əsgər paltarında cavan bir oğlan gəldi. Müharibədən yenicə qayıtmış bu gənc oğlan İslam Səfərli idi. O, Üzeyir bəylə görüşdükdən sonra yazdığı şeirləri göstərdi. Sərraf söz ustası olan böyük sənətkar onları oxudu və şeirləri bəyəndiyini söylədi. Gənc oğlana Bakıya gəlməyi tövsiyə etdi. Bildirdi ki, o, mütləq ali təhsil almalıdır. İslam utana-utana Bakıya gəlmək üçün maddi durumunun məhdud olduğunu dedi. Bu zaman Üzeyir bəy mənə işarə etdi ki, bu gənc oğlana pul verim. Mən də zərfə beş yüz manat qoyub ona verdim. Üzeyir bəy onu Bakıda gözləyəcəyini söylədi". Çox keçmir ki, İslam Səfərli Bakıya, birbaşa Üzeyir Hacıbəyovun yanına gedir. Görkəmli bəstəkar onu mehribanlıqla qarşılayır. Elə oradaca gənc oğlanın yanında Azərbaycan Dövlət Universitetinin direktoru Abdulla Qarayevə telefon edir və bu istedadlı gəncin universitetə qəbul olunmasını xahiş edir. Qəbul imtahanlarının qurtarmasına baxmayaraq, A.Qarayev Üzeyir bəyin sözünü yerə salmır. Beləliklə, İslam Səfərli Azərbaycan Dövlət Universitetinə imtahansız qəbul olunur, təqaüdünü isə hər ay Üzeyir bəy özü verir. Görkəmli şairimiz bu yaxşılığı ömrünün sonuna kimi unutmayıb.

Sevimli şagirdi Ərtoğrol Cavidin ürək yanğısı ilə hərbi xidmətdən anası Mişkinaza, bacısı Turan xanıma yazdığı məktublarda dostluq, doğmalıq münasibətlərini, eləcə də ədəbiyyatşünas, ictimai xadim, professor Rəfael Hüseynovun 1989-cu ildə nəşr olunan "Vaxtdan uca" əsərində dahi bəstəkarın Cavidlər ailəsinə həm maddi, həm də mənəvi cəhətdən necə arxa-dayaq durduğunu görürük. Ümumiyyətlə, Üzeyir Hacıbəyovun sədaqətli yoldaşlıq, mehriban dostluq, insanlıq, xeyirxahlıq əməlləri çox olub, hər kəsə qarşı səmimiyyəti ilə seçilən bu nəcib, alicənab şəxsiyyət haqqında dövrün tanınmış ziyalıları yüksək ifadələr səsləndirib. Bu baxımdan Maestro Niyazinin də fikirləri maraqlıdır: "Onun ürəyinin qapısı hər bir insan övladının üzünə açıq idi. Bəstəkar hər kəsin sevincinə və kədərinə şərik olmağı bacarırdı. Kimin nəyə ehtiyacı olduğunu həssaslıqla öyrənir, adamlara ağıllı məsləhətlər verirdi". Hələ uşaq yaşlarından başlayaraq həyatda çox çətinliklərə sinə gərməsi, bədnam qonşularımızdan gördüyü təzyiqlər, 1918-ci ilin mart qırğını zamanı ermənilərin evini güllələbaran etməsi, eyni zamanda da ömründə bircə dəfə "mənim övladım olmayıb. Amma əsərlərim mənim övladlarımdır. Heç kimə haqq vermirəm, icazə vermirəm ki, əsərlərimə əl gəzdirsin", – deyən Üzeyir Hacıbəyovun övladının olmaması, 1911-ci ildə musiqi təhsili almaq üçün Moskvaya gedib, lakin maddi ehtiyac üzündən təhsilini yarımçıq qoyub, Bakıya qayıtmağa məcbur qalması da, şübhəsiz, az rol oynamamışdı onda belə humanist xarakterin yaranıb, həssas qəlbin formalaşmasında...

"Şərur Azərbaycan folklor mədəniyyətinin beşiyidir", – deyən dahi Üzeyir Hacıbəyov "Şərur" yallılarına yüksək qiymət verib, bu milli dəyərimizin qorunub yaşadılmasının vacibliyini ön plana çəkib. Ölməz musiqi xadiminin uzaqgörən düşüncələri 1929-cu ildə yaradılan, yallıların qorunmasında, yaşadılmasında və təbliğində əvəzsiz rolu olan "Şərur" Xalq Yallı Ansamblının fəaliyyətində də öz təsdiqini tapıb. 1972-ci ildə Almaniya Demokratik Respublikasında keçirilən beynəlxalq folklor festivalına bu ansamblı hazırlayan Xalq artisti Əminə Dilbazinin xatirələri də bu qənaətə gəlməyə əsas verir: "Moskvadan xəbər gəldi ki, Berlində Ümumdünya folklor festivalı olacaq. Məni çağırdılar, dedilər ki, bəs sən nə məsləhət görürsən. Moskvanı Almaniyada kim təmsil edəcək, kimi aparaq? Qərara gəldik ki, Naxçıvan yallısını aparaq. Mən bilirdim ki, bizim yallı mənbəyimiz Naxçıvan torpağında – Şərurdadır. Düzdür, Azərbaycanın bir çox yerində yallılar mövcuddur. Ancaq Şərur torpağı yallıların beşiyidir. Az olubmu bizim yallıları, rəqslərimizi öz adlarına çıxanlar? Ona görə də biz ora – Almaniyaya elə bir folklor nümunəsi aparmalıyıq ki, üstündə möhürü olsun. Bu Şərur yallısı idi ki, xalqın, Azərbaycanın möhürü üstündə". Beləcə, yüksək səviyyədə hazırlaşan "Şərur" Xalq Yallı Ansamblı uğurlu çıxışı ilə festivalda birinci yeri tutur, Berlinin rəmzi sayılan balta hədiyyə edilir kollektivə.

Ötən əsrin 60-70-ci illərinin mətbu nəşrlərini nəzərdən keçirəndə "Kommunist" qəzetinin 1975-ci il 22 noyabr nömrəsində dahi bəstəkarın 90 illiyinə həsr olunan "Həmişəyaşar sənət – Üzeyir Hacıbəyov" adlı təntənəli yığıncaqdakı bir məqam diqqətimizdən yayınmır. Sovet ittifaqı ölkələrinin mədəniyyət nümayəndələrinin görkəmli sənətkarımızın həm şəxsi keyfiyyətləri, həm də ölməz əsərləri barədə bir-birindən maraqlı çıxışlarının yer aldığı həmin yığıncaqda Ermənistan bəstəkarlar ittifaqının birinci katibi E. Aristokesyanın səsləndirdiyi fikirlər dünya şöhrətli sənət xadiminin böyüklüyünü göstərməklə yanaşı, milli musiqimizə göz dikən, Üzeyir Hacıbəyovun fəaliyyətinə hər vəchlə mane olmağa, həyatına son qoymağa çalışan ikiüzlü millətin növbəti ifşasıdır: "Üzeyir Hacıbəyov Azərbaycan musiqisinin tarixində xüsusi yer tutur. Onu haqlı olaraq Azərbaycan musiqi mədəniyyətinin inkişafında yeni yolların ilk kəşfiyyatçısı adlandırmaq olar. Hər bir ilk kəşfiyyatçı kimi, onu da çətin, lakin xoşbəxt tale gözləyirdi. Onun bütün həyatı qəhrəmanlıqdır, xalqa, sevimli incəsənətə hərarətli xidmət etmək nümunəsidir, hazırkı dövr və gələcək qarşısında yüksək məsuliyyət timsalıdır... Özünün müxtəlif, o cümlədən böyük istedadlı bəstəkarları ilə zəngin olan Azərbaycanın rəngarəng və əlvan, müasir musiqi həyatı gözəl bəstəkarın xatirəsinə ən əziz töhfədir".

Ey nəhəng sənət sarayında özünə heç bir zaman yıxılmayacaq sarsılmaz abidə ucaldan dahi bəstəkarımız Üzeyir Hacıbəyov! ***"Bir azərbaycanlı, Azərbaycanın Prezidenti kimi fəxr edirəm ki, Azərbaycan xalqı belə zəngin mədəniyyətə, zəngin incəsənətə, peşəkar musiqiyə malikdir. Azərbaycanda peşəkar musiqinin əsasını böyük Üzeyir Hacıbəyov qoyubdur. Onun məktəbi, tələbələri, silahdaşları XX əsrdə Azərbaycanda çox yüksək musiqi mədəniyyəti yaradıblar. Biz bununla fəxr edirik"***, – deyən ümummilli liderimiz Heydər Əliyev ən ali qiyməti verib sənət dünyana, musiqimizin yaşadılması, mədəniyyətimizin pərvəriş tapması istiqamətində həyata keçirdiyin misilsiz işlərə. Yaxşı bilirik ki, sənin ruhun torpağın azadlığa çıxdığı üçün ikiqat şaddır bu gün. Çünki bir vaxtlar arzularının gerçəkləşməsi yönündə əlindən gələni əsirgəmədiyin, zəhmətkeşliyinə, qonaqpərvərliyinə rəğbət bəslədiyin naxçıvanlıların içərisindən çıxan qəhrəmanlar, igidlər də böyük pay sahibidir dilbər guşəmizin, mədəniyyət mərkəzimizin nicatında. Bəstələdiyin Dövlət Himninin, qiymətli əsərlərinin sədası oxşayır havasından, suyundan, naz-nemətindən, özünəməxsus yaradıcı aurasından ilhamlandığın doğma Şuşa, Naxçıvan torpağını. Böyük təşəbbüslə yaratdığın, görkəmli bəstəkarlardan, musiqiçilərdən Nəriman Məmmədov, Ramiz Mirişli, Yaşar Səfərov, Kamal Əhmədov, Nazim Kazımov, Adıgözəl Əliyev və digər məzunları ilə musiqi mədəniyyəti tariximizdə silinməz iz buraxan Naxçıvan şəhərindəki 1 nömrəli uşaq musiqi məktəbi bu gün öz nümunəvi fəaliyyəti ilə seçilir, hədiyyə etdiyin o pianonu da ən əziz yadigar, dəyərli xatirə olaraq göz bəbəyi kimi qoruyur kollektiv, musiqi dəryasına əsərlərinin izi ilə baş vurmağa can atır, sənət dünyasından ilham alaraq püxtələşməyə, yetişməyə çalışır gənc musiqiçilər nəsli. Bir sözlə, Naxçıvan və Şuşa, bu iki tarixi-mədəni mərkəzlə bağlı arzuların həyata keçib, iftiralarla səni şəkər xəstəliyinə düçar edən, ölümünə səbəb olan düşmənin gözünü kor edib yurdunun övladları, çiçək açan diləklərinin, pöhrələyib qol-budaq atan sənət çinarının hər zaman belə şux, təravətli, həmişəcavan qalması niyyətilə ey böyük musiqi ümmanı, sənət dühası...

**Nail ƏSGƏROV**

# Rabitə xətt təsərrüfatında təmir-bərpa işləri davam edir

Sədərək rayonunda digər sahələrdə olduğu kimi, rabitə və yeni texnologiyalar sahəsində də sürətli inkişaf müşahidə olunur. Həyata keçirilən sosial-iqtisadi islahatlar rabitə sahəsinin inkişafına əsaslı zəmin yaradıb, ən müasir texnologiyaların tətbiq edilməsi ilə telekommunikasiya xidmətlərinin çeşidinin və keyfiyyətinin artırılması istiqamətində bir sıra layihələr həyata keçirilib.

Cari ilin ötən dövründə rayon sakinlərinin rabitə və internet xidmətlərinə olan tələbatının ödənilməsi məqsədilə rayon mərkəzində və kəndlərdə mövcud avtomat telefon stansiyalarının internet tutumları artırılaraq internet istifadəçilərinin tələbatının ödənilməsinə şərait yaradılıb. Həmçinin istismar müddəti ərzində rabitə xətt və abunə qurğularında yaranmış nasazlıqların aradan qaldırılması istiqamətində də operativ və zəruri tədbirlər həyata keçirilib. Rayonun Heydərabad qəsəbəsində və kəndlərdə rabitə xətlərinə və abunə qurğularına baxış keçirilib, rabitə kabellərindəki zədələnmələr, o cümlədən xətlərdəki digər nasazlıqlar aşkar edilməklə nöqsanlar aradan qaldırılıb. Həyata keçirilən tədbirlərin davamı olaraq Sədərək kəndinin bir neçə yaşayış məhəlləsində sakinlərin keyfiyyətli internet və rabitə xidmətlərindən istifadə etmələri üçün rabitə xətt təsərrüfatında təmir-bərpa işləri davam etdirilir. Yararsız vəziyyətdə olan taxta rabitə dirəkləri metal dirəklərlə əvəz olunur, 650 metrə yaxın müxtəlif tutumlu zədələnmiş kabellər yenilənir, 10 ədəd yeni rabitə dirəyi basdırılır, 2 abunə qutusu əlavə edilməklə xətlərdəki nasazlıqlar bərpa olunur.



***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# Uşaqların fiziki və zehni inkişafında xalq oyunlarının böyük rolu var

*Uşaqların və yeniyetmələrin sağlamlığı həm də cəmiyyətin sağlamlığı deməkdir. Onların mənəvi tərbiyəsində, fiziki sağlamlığında bədən tərbiyəsi və idmanın müstəsna rolu olduğu kimi, şifahi xalq ədəbiyyatı da gələcək nəsli hərtərəfli sağlam böyütmək, onları inkişaf etdirmək üçün olduqca əhəmiyyətlidir. Belə ki, folklorun önəmli bir sahəsi olan uşaq folklorunun əsas hissəsini oyunlar təşkil edir. Sevindirici haldır ki, xalqımız hər yaşa uyğun uşaq oyunları yaratmışdır. Oyunların qorunub saxlanılmasında, itib-batmamasında, gələcək nəsillərə çatdırılmasında valideynlərlə yanaşı, müəllimlərin də rolu böyükdür. Evdə valideyn, məktəbdə də müəllimin idman dərslərində uşaq oyunlarının bir neçəsindən istifadə etməsi bu prosesdə mühüm rol oynayır.*




Əvvəllər məktəbdə bəzi dərslərdə "Bənövşə" oyunu çox sevilən oyunlardan biri idi. İndi isə təəssüflə demək olar ki, bu cür oyunlar oynanılmır. Bu da uşaq oyunlarının zaman-zaman itib-batmasına səbəb olur. Çünki indiki uşaqlar daha çox elektron cihazlar vasitəsilə oynamağa aludədirlər, bu isə onların zehinlərini yorur, düşünmə və görmə qabiliyyətlərini zəiflədir, insan orqanizmi üçün ciddi təhlükə yaradacaq şüalanmaya məruz qoyur. Bir sözlə, belə oyunlar uşaqların sağlamlıqlarını əlindən alır. Buna görə də onları bu oyunlardan çəkindirmək lazımdır. Bunun üçün onları uşaq folklorunda yer alan oyunlara meyilləndirmək, onlarda bu oyunlara maraq yaratmaq və sevdirmək gərəkdir. Bu prosesdə isə valideyn və müəllim əlbir olmalıdır. Yəni bu proses birtərəfli mümkün deyil. Bu iş paralel şəkildə – evdə və məktəbdə eyni səviyyədə aparılmalıdır. Məktəbdə bunun ən yaxşı yolu məhz fiziki tərbiyə dərsləridir.

Uşaq oyunları sağlamlıq və zehnin inkişafı üçün çox önəmli rol oynayır. Oyunların bir qismi zehni inkişaf etdirən, bir qismi də fiziki sağlamlığı artıran, yəni idman xarakterlidir.

İdman xarakterli oyunları "Gizlənqaç", "İp atlama", "Ortayagirmə", "Çiləmə", "Qovalaqaç" və sair aid edə bilərik.

Zehni inkişaf etdirən oyunlardan isə "Son hərfə görə söz demə", "Qəcəmədaş", "Ad oyunu" və başqalarının adlarını çəkə bilərik.

"Qəcəmədaş", "Beş daş" kimi tanınan oyun maraqlı və faydalı uşaq oyunlarındandır. Oyun iki nəfər arasında olur. Oyuna ilk dəfə kimin başlayacağını müəyyən etmək üçün aşağıdakı bənd deyilir:

*Em, em emişka,*
*Cibi dolu semişka.*
*Mən istədim vermədi,*
*Adın qoydum hin-duş-ka.*

Sayılan zaman şeir parçası ən son kimdə bitərsə, birinci oyuna həmin uşaq başlayır. Beş daşı əlində komalayıb atır yerə. Sonra onlardan birini – hansını istəsə götürür əlinə. Buna "səqqə" deyirlər. Sonra həmin daşı göyə atıb bir-bir daşları götürür əlinə. Gərək "səqqə" yerə düşməyə, daşlar da tərpənib bir-birinə dəyməyə. Qeyd edək ki, oyunda ancaq bir əldən istifadə edirlər. İkinci əli işlətmək olmaz. Birinci mərhələ belə başa çatır. Oyun bir neçə mərhələ olur. Get-gedə oyunun şərtləri çətinləşir. Sonra daşları iki-iki, daha sonra üç-bir götürürsən əlinə. Bu mərhələ keçdikdən sonra daşlar hamısı göyə atılır. Yerə düşən daşlardan birini sağ əlinə alıb sonra sol əlin iki barmağını – baş və orta barmağı körpü yaradacaq şəkildə yerə qoyursan. Rəqib oyunçu yerdəki daşlardan birini "molla" olaraq seçir, seçim zamanı daşlara manə törədəcək olanı götürür ki, daşlar ona dəysin, oyunçu uduzsun. Oynayan "səqqə"ni göyə atır, tutana qədər yerdəki daşların hamısını bir-bir, sonra iki-iki, sonra birin bir, üçünü bir axırda da hamısını birdən, "molla" daş da daxil olmaqla iki barmağının arasından keçirtməlidir.



Oyunu başa çatdıran qalib hesab olunur. Uduzan isə oyunu yenidən başlamalıdır.

Qalib olan uduzana "cəza verir". İki əlinin ortasına bir daş qoyur əllərini bir-birinə bükülü – bir az yer saxlayacaq şəkildə "küpədən bal çıxart", – deyir. Uduzan daşı götürmək istəyəndə əlini tutur, icazə vermir götürməyə, lakin qarşı tərəf bir yol tapıb daşı götürməlidir. Və yaxud iki barmağının arasına daşı qoyub sıxaraq "quş göstər", – deyir.

Olduqca maraqlı olan bu oyun böyük məharət və diqqət tələb edir. Çünki oyunçu həm atdığı daşa baxır ki, tuta bilsin, həm də yerdəki daşları qaydasında, digərlərinə dəymədən götürməlidir. Belə oyunlar uşaqların diqqətini də artırır. Bu xalq oyunları vasitəsilə uşağın görməsi, əqli zirəkliyi, təşəbbüskarlığı inkişaf edir, iradəsi möhkəmlənir. Deməli, bu kimi oyunların uşaqların məharətinin ortaya çıxmasında, özünəinamında, diqqətinin paylanmasında böyük əhəmiyyəti vardır. Bu oyunlar zamanı həm də uşaqlar çətin vəziyyətdən çıxış yolu axtarır. Həm daş barmaqlarının arasında sıxılaraq onu incitməklə "quş tapması" və "küpədən bal çıxart"maqla barmaqlarının üstünün cırmaqlanması ilə anlayır ki, məqsədinə nail olmaq üçün çətinliklərin öhdəsindən gələ bilməlidir.

Uşaqların dünyagörüşünü, onların söz ehtiyatını artıran oyunlardan biri də "Ad oyunu"dur. "Şəhər-kənd", "Ad-soyad" kimi adlarla xalq arasında tanınan bu oyunun məzmunu aşağıdakı kimidir: iki və daha çox uşağın iştirakı ilə keçirilən oyunda hərə bir ağ vərəq götürür, onu bir neçə sütuna bölür. Hər sütunun başında ad-soyad, şəhər və ölkə, kənd, heyvan və həşərat, meyvə-tərəvəz, kino, əşya adları yazılmaq üçün ayrıldığı qeyd olunur. Doqquzuncu sütuna isə xal sözü yazılır. Oyuna hansı hərflə başlamaq üçün ilk hərfi deyəcək oyunçunu seçmək lazımdır. Bunun üçün sayılır, yəni aşağıdakı deyilir:

*Ekidi, mekidi, bilmərəm,*
*Fəridəni dindirmərəm.*
*Fəridə yaman forsludur,*
*Nizaminin dostudur.*

Qazanan uşaq ilk hərfi ya deyir, ya da qələmi yazının üstündə fırlayır uşaqlar "dur" deyəndə dayanır. Qələm hansı hərfin üstünə düşsə, onunla başlayırlar. Sonrakı mərhələlərdə isə oyunun qalibi hərfi müəyyən edir. Bu oyunda bəzən vaxt qoyulur, bəzən də ən tez yazıb qurtaran "bitdi" deyərək oyunu dayandırır. Sonra isə bir-bir yoxlayırlar. Düz olanlara xal yazılır. Əgər eyni adı başqası da yazıbsa, onda xallar iki uşaq arasında bölünür. Hər oyunun sonunda xal sütununa xalların cəmi yazılır. Beləliklə, oyun davam etdirilir. Neçə oyun oynayacaqları uşaqlar tərəfindən əvvəlcədən müəyyən edilir. Əgər oyun 10 turdan və yaxud 15 turdan ibarətdirsə, turlar tamam olanda ümumi ballar cəmlənir. Balı yüksək olan qalib sayılır.

Bu oyun uşaqların dünyagörüşünün, zehninin inkişafında böyük rol oynayır, onların söz ehtiyatını zənginləşdirir, məlumatlandırır. Uşaqların şəhərlər və ölkələrlə bağlı biliyini artırır, həm kəndlərin adlarını mənimsədir, həm heyvanlarla bağlı geniş bilgi verir, həm meyvə-tərəvəz adları sarıdan lüğətlərini zənginləşdirir, həm filmlərlə bağlı dünyagörüşü və biliyini artırır, həm də əşyalarla bağlı müəyyən məlumat əldə edir. Bunlardan başqa onlarda sürətli düşünmə vərdişi formalaşdırır. İlk olaraq sözləri tapan oyunu dayandırdığı üçün burada vaxt əhəmiyyətli rol oynayır. Vaxtdan düzgün istifadə etmək, sürətli olmaq oyunçunun qalibiyyəti deməkdir. Bu həm də vaxtla, zamanla bağlı aşağıdakı atalar sözlərinin doğruluğunu övladlarımıza hələ uşaqkən zamanın sınağından çıxarıb hafizələrinə həkk etməyə yardımçı olur: "Vaxtı itirsən hədər, görərsən böyük zərər", "Vaxt qızıldan qiymətlidir", "Vaxtını itirən baxtını itirir". "Vaxt" məfhumuna diqqət çəkməklə hər kəsdə uşaqlıqdan vaxta qənaət, vaxtdan səmərəli istifadə, vaxtı dəyərləndirmə vərdişləri formalaşdırmağın əhəmiyyətini vurğulamaq və buna nümunə gətirdiyimiz, həmçinin digər bu tipli oyunlar vasitəsilə aşılamağın daha səmərəli olduğunu qeyd etməliyik.

*Tək bu göstərilən oyunlara əsaslanaraq uşaqların formalaşmasında, müxtəlif sahələrdə müəyyən biliyə sahib olmasında uşaq oyunlarının rolunun əvəzedilməz olduğuna əminliklə deyə bilərik. Nə qədər ki gec deyil, nə qədər ki bu oyunları oynayanlar yaşayırlar onları övladlarına, nəvələrinə öyrətməli, texnologiya əsrinin əsirinə çevrilməkdə olan gələcəyimizi milli zəmin üzərində sağlam dayanmağa alışdırmalıyıq. Uşaq oyunlarının, bu mənada, böyük rolu var. Bu roldan lazımınca faydalanmaq isə heç zaman gec deyil.*

**Çinarə RZAYEVA**
*filologiya üzrə fəlsəfə doktoru*

---

*Dünən Atletika Federasiyasının Bədii Gimnastika bölməsinin məşqçi-müəllimləri üçün Azərbaycan Gimnastika Federasiyasının məşqçi-müəllimləri tərəfindən keçirilən kursu uğurla başa vuranlara Atletika Federasiyası tərəfindən sertifikatlar verilib.*

# Bədii gimnastika bölməsinin məşqçi-müəllimlərinə sertifikatlar təqdim olunub



Bu münasibətlə keçirilən tədbirdə Atletika Federasiyasının sədri Rəhman Məmmədov çıxış edərək bildirib ki, bu gün muxtar respublikada uşaq, yeniyetmə və gənclərin sağlam həyat tərzinə istiqamətləndirilməsi, fiziki və mənəvi hazırlıqlarının yüksəldilməsi, idmana maraqlarının artırılması, asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Federasiyanın sədri bildirib ki, hazırda da federasiyanın tərkibində Bədii gimnastika bölməsi fəaliyyət göstərir. Gimnastika bölməsinin Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində, Naxçıvan Qızlar Liseyində, Naxçıvan Dövlət Texniki Kollecində, Naxçıvan şəhər, Şərur və Ordubad rayonlarının Uşaq-gənclər idman məktəblərində 7 qrupu yaradılıb. Bu qruplarda 200-dən artıq uşaq gimnastikanın sirlərinə yiyələnir. Hazırda Babək, Kəngərli və Şahbuz rayonlarında da yeni qrupların yaradılması istiqamətində tədbirlər görülür. Bölmənin rəhbəri Humay Qafarova Bakı şəhərində keçirilən hakimlik və məşqçilik kurslarında iştirak edərək məşqçilik sertifikatı və hakimlik vəsiqəsi alıb. Həmçinin Humay Qafarovanın iyulun 7-dən 15-dək İsveçrənin Nyuşatl şəhərində "Gimnastika hamı üçün" növü üzrə 13-cü "EVROGYM" və 3-cü "European gym for life challenge" yarışlarında "Moonlight" adı altında qatıldığı yığma komanda ikinci olub.

Qeyd olunub ki, federasiya tərəfindən idmanın kütləviliyinin təmin olunması məqsədilə bir sıra tədbirlər keçirilir. Cari ilin aprel ayının 16-da ilk dəfə olaraq "Gimnastika" dərnək üzvlərinin bədii gimnastika üzrə nümunəvi çıxışları da bu sahədə həyata keçirilən tədbirlərin davamıdır.

Diqqətə çatdırılıb ki, bölmənin kadr potensialını formalaşdırmaq məqsədilə federasiya tərəfindən ümumtəhsil məktəblərində fiziki tərbiyə fənnini tədris edən və gimnastika müəllimi kimi fəaliyyət göstərən müəllimlər üçün seminarlar təşkil olunur, məşqçi-müəllimlərə sertifikatlar təqdim edilir.

Bölmənin məşqçi-müəllimlərinin bilik və bacarıqlarını daha da təkmilləşdirmək, ölkə və beynəlxalq dərəcəli məşqçilərin yetişdirilməsi, nəzəri və praktik biliklərinin genişləndirilməsi məqsədilə Naxçıvanda ilk dəfə olaraq iyulun 21-dən 27-nə kimi kurslar da təşkil olunub. Azərbaycan Gimnastika Federasiyasının məşqçi-müəllimi Züleyxa İsmayılova və xoreoqraf Sənan Mahmudlu tərəfindən keçirilən kurslarda əməkdaşlara bədii gimnastika və xoreoqrafiya haqqında ümumi məlumatlar verilib, bədii gimnastika alətləri ilə məşqlər praktik olaraq həyata keçirilib.

Tədbirdə 14 məşqçi-müəllimə Atletika Federasiyasının sertifikatları təqdim olunub.

Tədbirdə federasiyanın Bədii gimnastika bölməsinin rəhbəri Humay Qafarova da Naxçıvan Muxtar Respublikasında bədii gimnastikanın inkişafında səmərəli fəaliyyətinə və İsveçrədə keçirilən yarışlarda Azərbaycan yığma komandasının tərkibində fəal iştirak etməsinə görə federasiyanın təşəkkürnaməsi ilə təltif olunub.

Tədbirdə Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbinin Bədii gimnastika bölməsinin gimnastlarının nümunəvi çıxışları olub.

**Xəbərlər şöbəsi**

---

# Güləş üzrə yoldaşlıq görüşü keçirilib



Şahbuz rayon 1 nömrəli tam orta məktəbin idman zalında dostluq və idman əlaqələrinin gücləndirilməsi məqsədilə "Naxçıvan" və "Şahbuz" komandaları arasında sərbəst güləş üzrə yoldaşlıq görüşü keçirilib.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası, Naxçıvan Şəhər və Şahbuz Rayon Gənclər və İdman idarələri və Uşaq-Gənclər İdman məktəblərinin birgə təşkil etdiyi yoldaşlıq görüşündə 11 çəki dərəcəsi üzrə 22 idmançı mübarizə aparıb.

Dünya Güləş Birliyinin mövcud qaydalarına əsasən keçirilən yoldaşlıq görüşünün yekun nəticəsinə əsasən "Naxçıvan" komandası 7:4 hesabı ilə qalib gəlib.

Sonda fərqlənən idmançılar təşkilatçıların diplom və fəxri fərmanları ilə mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

---

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Ər-arvadın soyad seçmək hüququ necə tənzimlənir ?*

**Cavab:** Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən ər-arvad öz arzuları ilə onlardan birinin soyadını özləri üçün ümumi soyad seçə, yaxud onlardan hər biri nikahdan əvvəlki soyadını saxlaya və ya öz ərinin (arvadının) soyadını öz soyadı ilə birləşdirə bilər. Nikaha daxil olanların biri və ya hər ikisi qoşa soyada malik olduqda soyadların birləşdirilməsinə yol verilmir. Ər-arvaddan birinin soyadının dəyişdirilməsi digərinin soyadının dəyişdirilməsinə səbəb olmur. Nikah pozulduqda ər (arvad) ümumi soyadlarını saxlamaq və ya nikahdan əvvəlki soyadını bərpa etmək hüququna malikdir.

***Sual:** Yeni doğulmuş uşağa adın seçilməsi necə müəyyən olunur?*

**Cavab:** Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən uşağa ad valideynlərinin razılığı ilə verilir. Valideynlər ad seçimində sərbəstdirlər. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli Qərarı ilə təsdiq edilmiş "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları"nda göstərilir ki, yeni doğulmuş uşağın mənafeyinə xələl gətirə biləcək, habelə şəxsin cinsinə uyğun gəlməyən və ya gülünc adın qoyulmasına yol verilmir.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 686